

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 158 (21.568)

25 avqust 2016-cı il, cümə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqi ilə bağlı seminar



***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Babək rayonunda dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqi ilə bağlı maarifləndirici seminar keçirilib.***

Dövlət qulluqçularının etik davranış qaydaları, onların xidməti fəaliyyətinin qiymətləndirilməsi və dövlət orqanlarında kargüzarlığın aparılması qaydaları mövzusunda keçirilən seminarı Babək Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Vaqif Rəsulov giriş sözü ilə açaraq keçirilən tədbirin əhəmiyyətindən danışıb, rayonda dövlət qulluqçularının səmərəli fəaliyyəti üçün yaradılan şəraitdən bəhs edib.

95 dövlət qulluqçusunun iştirak etdiyi seminarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın şöbə müdiri Ümid Qurbanov "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda çıxış edərək bildirib ki, hər bir dövlət qulluqçusu qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutaraq bu qanunun müddəalarına əməl etməyə borcludur. Şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə dövlət qulluqçuları öz vəzifələrini səmərəli yerinə yetirməlidirlər. Onlar bütün hallarda hər bir şəxs üçün nümunə olmalıdırlar. Dövlət qulluqçusu etik davranışı, peşəkar fəaliyyəti ilə hüquqi və fiziki şəxslərin dövlət orqanlarına inamını artırmalı və möhkəmləndirməli, dövlət qulluğu vəzifələrinin icrası ilə bir araya sığmayan, onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. O, dövlət orqanının və dövlət qulluğunun nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini uca tutmağa, etik davranış qaydalarının onun tərəfindən pozulması nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur. Dövlət qulluqçusu bütün şəxslərə, o cümlədən birbaşa və rəhbəri ilə və ya tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır.

Sonra komissiyanın İnformasiya texnologiyaları və proqram təminatı şöbəsinin müdiri Mahir Abbasov "Dövlət orqanlarında kargüzarlığın aparılması qaydaları" mövzusunda çıxış edərək dövlət orqanlarında kargüzarlığın aparılması işi, o cümlədən sənədlərin hazırlanması, qeydiyyatı, hərəkəti, icrası, uçotu və digər məsələlər barədə tədbir iştirakçılarına məlumat verib, vətəndaşların müraciətlərinin qəbulu və qeydiyyata alınması, müraciətlərə baxılması və cavablandırılması, vətəndaşların qəbulunun təşkil edilməsi, müraciətlərlə bağlı sənədlərin qovluqlaşdırılması və saxlanılması qaydaları haqqında danışıb.

Komissiyanın baş məsləhətçi-hüquqşünası Zaman Bağırov isə çıxışında inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilmə meyarları haqda danışıb. Bildirilib ki, komissiya qeyd olunan normanın Naxçıvan Muxtar Respublikasında icrasını təmin etmək məqsədilə "Naxçıvan Muxtar Respublikasında dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları"nı təsdiq edib. Qaydalara əsasən, dövlət qulluqçusunun yanvar ayının 1-dən dekabr ayının 31-dək olan xidməti fəaliyyət dövrü təqvim ilinin sonunda qiymətləndirilir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi onun tabe olduğu rəhbər tərəfindən həyata keçirilir. Dövlət orqanı üzrə qiymətləndirilmənin nəticələrinə görə yekun hesabat növbəti ilin mart ayının 1-dək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin meyarlara görə qiymətləndirilməsi məqsədilə hər ilin yanvar ayında dövlət qulluqçusu qarşısında təqvim ili ərzində icra etməli olduğu mühüm tapşırıqlar qoyulur. Dövlət qulluqçusunun xidməti fəaliyyəti peşə bilikləri, xidməti vəzifələrə münasibət, təhlil aparmaq, problem həll etmək və qərar vermək bacarığı, yaradıcılıq və təşəbbüskarlıq, əmək intizamı, iş təcrübəsi və onu bölüşmə, kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərarası münasibətlər meyarlarına əsasən qiymətləndirilir.

Slaydlarla müşayiət olunan çıxışlardan sonra seminar iştirakçılarını maraqlandıran suallar ətraflı cavablandırılıb.

✍ **Səbuhi HÜSEYNOV**

***Naxçıvan şəhərində hər il genişmiqyaslı tikinti-quruculuq işlərinin aparılması, abadlıq tədbirlərinin həyata keçirilməsi muxtar respublika paytaxtının simasını xeyli dərəcədə dəyişdirib. Yeni yaşayış binalarının, park və istirahət mərkəzlərinin tikilməsi və ya yenidən qurulması ilə yanaşı, dövlət qurumlarının fəaliyyəti də diqqət mərkəzində saxlanılır.***

## Yeni quruculuq ünvanları dövlət qurumlarının fəaliyyətinə hərtərəfli şərait yaradacaq



Son illərdə muxtar respublikanın digər bölgələrində olduğu kimi, paytaxt Naxçıvan şəhərində də onlarla dövlət qurumu üçün yeni bina istifadəyə verilib, bu qurumlarda çalışanlar rahat və müasir iş şəraiti ilə təmin olunub. Bu tədbirlərin davamı kimi hazırda Naxçıvan şəhərinin Cəlil Məmmədquluzadə küçəsində Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi üçün yeni bina inşa edilir. "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən tikilən bina zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarətdir. Binanın hörgü işləri yekunlaşdırılıb, kommunikasiya xətləri çəkilib, dam örtüyü vurulub. Hazırda fasad hissə travertin daşla üzlənir, daxildə suvaq işləri aparılır, döşəmə vurulur. İşlər yekunlaşdıqdan sonra zirzəmi hissədə qazanxana, yeməkxana, arxiv və server otaqları, o cümlədən anbarlar yerləşəcək. Birinci, ikinci və üçüncü mərtəbələrdə laboratoriya və iş otaqları, dördüncü mərtəbədə iş otaqları ilə bərabər, kitabxana, 108 yerlik iclas zalı yaradılacaq.



Naxçıvan şəhərinin daha bir ünvanında, Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi üçün nəzərdə tutulmuş binada isə son tamamlama işləri görülür. Bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən binanın iki mərtəbəsi əsaslı təmir edilib, binaya daha bir mərtəbə əlavə olunub. Binanın zirzəmi hissəsində qazanxana, yeməkxana, arxiv və anbar otaqları, digər mərtəbələrdə isə iş və server otaqları, 50 yerlik iclas zalı, çap otağı yerləşəcək.

## Quruculuq tədbirləri Şahbuz rayonunun simasını əsaslı surətdə dəyişib

Şahbuz rayonunda quruculuq tədbirlərinin həcmi ildən-ilə genişlənir. Bu tədbirlər hesabına rayonun ən ucqar dağ və sərhəd yaşayış məntəqələrinin belə, siması tanınmaz dərəcədə dəyişilib, kəndlərdə kompleks quruculuq işləri görülüb. Cari ilin ötən dövrü ərzində Daylaqlı kəndində 120 şagird yerlik məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilib. Kolanı kəndində isə 316 şagird yerlik məktəb binasının, Kiçikoba kəndində xidmət mərkəzinin və Şahbuz şəhərində elektrik şəbəkəsi üçün yeni binanın tikintisi aparılır.

Muxtar respublikamızda geniş vüsət alan tikinti-quruculuq tədbirləri bütün sahələri əhatə edir. Yol-nəqliyyat kompleksinin yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində görülən işlər bu tədbirlərin tərkib hissəsidir. Şahbuz rayonunda da yolların müasir tələblər səviyyəsində yenidən qurulması diqqətdə saxlanılıb. Cari ilin ötən dövründə Daylaqlı və Kiçikoba kəndlərində 2,8 kilometr uzunluğunda asfalt örtük salınıb, Yuxarı Qışlaq kənd avtomobil yolunun kənarında 15 metr uzunluğunda istinad divarı çəkilib, Külüs, Kükü, Güney Qışlaq, Ayrınc kənd yollarında, eləcə də Şahbuz-Batabat magistral yolunda cari təmir işləri aparılıb.

**Xəbərlər şöbəsi**

## Günəş elektrik stansiyasında enerji istehsalı artır



***Muxtar respublikamızın enerji təhlükəsizliyinin təmin olunmasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin mühüm əhəmiyyəti vardır. Hazırda bütün dünyada belə ekoloji təmiz enerji mənbələrindən istifadə təbii sərvətlərin iqtisadi dövriyyəyə cəlb olunmasının ən yaxşı yollarından biri hesab edilir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında istifadəyə verilən Günəş elektrik stansiyası həm ekoloji təmiz iqtisadi layihə, həm də enerji təhlükəsizliyi baxımından böyük əhəmiyyətə malikdir.***

Ölkəmizin müstəqilliyinin ilk illərində Naxçıvan Muxtar Respublikasının üzləşdiyi ən böyük çətinliklərdən biri enerji çatışmazlığı olub. Blokada ucbatından elektrik enerjisinin çatışmaması o dövrdə bütün Naxçıvanın iqtisadi və mədəni həyatını iflic vəziyyətə salmış, ən mühüm sahələrdə enerji qıtlığı özünü hiss etdirmişdi. Lakin Naxçıvanda enerji təminatının yaxşılaşdırılması istiqamətində görülmüş irimiqyaslı işlərdən sonra bu vəziyyət tamamilə dəyişildi. Hazırda Naxçıvanda enerji təhlükəsizliyi tam təmin olunub. Bu baxımdan ötən il dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin açılışını etdiyi 20 meqavat gücündəki Günəş elektrik stansiyası ən mühüm layihələrdəndir.

Hazırda Günəş elektrik stansiyası Naxçıvanın enerji təminatında təqribən 7,5 faizlik bir paya malikdir. Başqa sözlə, cari ilin ilk 7 ayı ərzində Naxçıvan Muxtar Respublikasında elektrik şəbəkəsinə ötürülmüş 246130000 kilovat-saat enerjinin 18434000 kilovat-saatı bu stansiyanın payına düşüb. Naxçıvanın enerjiyə olan tələbatı yay aylarında daha çoxdur. Günəş elektrik stansiyasının da ən məhsuldar dövrləri bu aylarda olur. Günəş elektrik stansiyası yay aylarındakı isti hava şəraitinə görə yüklənməyə məruz qalan digər stansiyaların işinin yüngülləşdirilməsində də mühüm rol oynayır. Digər bir tərəfdən stansiyada ətraf mühitin çirklənməsi və təhlükə doğuran hallar olmadığından yeni obyektin Naxçıvan üçün çox qiymətli olduğunu deyə bilərik.

Naxçıvan Günəş Elektrik Stansiyası 35 hektar ərazidə tikilib. Stansiyada 78 min 683 ədəd ən müasir "şüşə-şüşə" tipli günəş panelləri quraşdırılıb. Burada invertor, transformator, komutasiya aparatları və digər elektrik avadanlıqları ilə təchiz olunmuş 11 ədəd transformator yarımstansiyası vardır. Panellərlə transformator yarımstansiyaları, bu yarımstansiyalar ilə birləşdirici məntəqə arasında kabel və yüksəkgərginlikli elektrik verilişi xətti çəkilib.

Günəş elektrik stansiyası bizə nə qazandırır? Əvvəlcə qeyd edək ki, hazırda bu stansiyanın istifadəyə verilməsi ilə Naxçıvanda enerji hasil edə bilən elektrik stansiyalarının sayı səkkizə çatıb. Əgər ötən əsrin 90-cı illərində Naxçıvandakı tək Araz Su Elektrik Stansiyası vasitəsilə cəmi 22 meqavat güc əldə olunurdusa, indi artıq bu 8 stansiya vasitəsilə bundan, təqribən, 10 dəfə çox elektrik enerjisi əldə etmək imkanımız vardır. Beləliklə, vaxtilə blokada vəziyyətinə salınmaqla əsas enerji və kommunikasiya əlaqələri kəsilmiş muxtar respublikada enerji təhlükəsizliyi istiqamətində dövlətimizin həyata keçirdiyi bu cür məqsədyönlü işlər nəticəsində həm istilik, həm yerli hidroenerji potensialına əsaslanan su elektrik stansiyaları, həm də Günəş elektrik stansiyası sayəsində etibarlı enerji infrastrukturu yaradılıb.

Günəş elektrik stansiyası çox uğurlu layihədir. Onun vasitəsilə bir daha sübut olundu ki, Naxçıvanın hər qarışı qızıldan da qiymətlidir. İndi tam əminliklə deyə bilərik ki, sahib olduğumuz təbii sərvətlərdən səmərəli istifadə ilə biz artıq bütün sahələrdə öz sözümüzü deməyə, ölkəmizin iqtisadi gücünə güc qazandırmağa qadirik.

✍ **Əli CABBAROV**

# Gündən-günə abadlaşan və gözəlləşən diyar – BABƏK

## Sürətli inkişafın bəhrələrini hər addımda görmək olar

***Son illərdə Babək rayonunun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər öz uğurlu bəhrələrini verib. Məhz bu tədbirlərin nəticəsində rayonun siması xeyli dəyişilib, yaşayış məntəqələri abadlaşıb, yenilənib. Həyata keçirilən böyük infrastruktur layihələri, yeni istifadəyə verilən mədəni-sosial obyektlər bu rayona dövlət qayğısının bariz nümunəsidir.***



Rayonda həyata keçirilən tikinti-quruculuq tədbirləri bütün yaşayış məntəqələrini əhatə edib. Müasir arxitektura üslubunda inşa edilmiş inzibati binalar, müəssisələr, müasir xəstəxanalar, məktəb binaları, kənd və xidmət mərkəzləri, salınan yollar və körpülər əhalinin yaxşı şəraitdə işləməsinə, məşğulluğunun təmin olunmasına, rahat yaşamasına, sağlamlığının qorunmasına, rifah halının yaxşılaşmasına, insanların asudə vaxtlarının səmərəli təşkilinə göstərilən qayğının təzahürüdür. Təkcə bir faktı qeyd edək ki, rayonda 2001-ci ildən sonra 30-dan çox məktəb binası tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, təhsil ocaqları müasir avadanlıqlarla təchiz edilib, kəndlərin böyük əksəriyyəti müasir yaşayış məntəqələrinə çevrilib, Babək qəsəbəsindən tutmuş ucqar dağ kəndlərinə qədər yaşayış məntəqələri elektrik enerjisi, mavi yanacaq, içməli və suvarma suyu ilə tam təmin olunub. Ötən il də Babək rayonunda genişmiqyaslı quruculuq tədbirləri davam etdirilib, yeni quruculuq ünvanlarının sayı artıb. Rayon mərkəzində Babək Rayon Rabitə İdarəsi üçün yeni inzibati bina tikilib istifadəyə verilib. Babək qəsəbəsinin Heydər Əliyev prospektində 500 metr məsafədə daş hasar inşa olunub. 5 mərtəbəli 60 mənzilli yaşayış binasında yenidənqurma işləri aparılıb, park salınıb, yaşıllaşdırma işləri həyata keçirilib və müasir işıqlandırma sistemi quraşdırılıb.

Abadlıq işləri çərçivəsində 1200 metr yola asfalt örtük salınıb, 482 metr uzunluğunda beton kanal çəkilib, 16 su keçidi tikilib. Sakinlərin kommunal şəraiti yaxşılaşdırılıb. 384 nömrəlik yeni nəsil avtomat telefon stansiyası quraşdırılıb, 2800 metr fiber-optik, 2000 metr yerüstü və 1500 metr yeraltı rabitə xətti çəkilib, 450 metr elektrik xətti yenilənib, müxtəlif güclü transformator yarımstansiyalarında əsaslı təmir işləri aparılıb. Yeni tikililərə qaz və su xətləri çəkilib, yaşıllıqların suvarılması üçün 2250 metr məsafədə damcılı suvarma şəbəkəsi qurulub. Naxçıvan Beynəlxalq Hava Limanından Babək rayon mərkəzinə gedən 16,5 metr enində, 2515 metr uzunluğunda olan avtomobil yoluna asfalt döşənib, piyada yolu qaydaya salınıb, müasir işıqlandırma sistemi yaradılıb.

Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında” 27 avqust 2014-cü il tarixli Sərəncamına uyğun olaraq, adıçəkilən marşrutlar üzrə avtomobil yolu yenidən qurulub, 35 kilometrlik yol 31 min nəfər sakinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirib. Rayonun ən böyük yaşayış məntəqələrindən biri olan Nehrəm kəndində bir neçə ildir ki, quruculuq tədbirlərinin həyata keçirilməsi davamlı xarakter alıb. Ötən illərdə həmin yaşayış məntəqəsində kompleks tikinti işləri aparılıb. Nehrəm kənd 2 nömrəli tam orta məktəbin binasında yenidənqurma tədbirləri həyata keçirilib. Quruculuq tədbirləri rayonun Xəlilli, Xal-xal və Yarımca kəndlərini də əhatə edib. Bu il də quruculuq tədbirləri davam etdirilir, rayonun Məzrə, Badaşqan kəndlərində quruculuq işləri aparılır, rayon İcra Hakimiyyətinin binası yenidən qurulur.

Məlumat üçün bildirək ki, 2016-cı ilin yanvar-iyul aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 39403,5 min manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,4 faiz çox investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 1,6 faiz artaraq 38101,9 min manat təşkil edib.

### *Nəticələr iqtisadiyyatda qazanılan böyük uğurlardan soraq verir*

Babək rayonu sənaye sahəsində böyük potensialı olan bölgələrimizdən biridir. Rayonda hazırda çox sayda emal və sənaye müəssisələri mövcuddur. Bu ilin yeddi ayında rayonda 71441,1 min manatlıq, yaxud 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faiz çox sənaye məhsulu istehsal olunub. Rayonda müxtəlif sahələrdə müasir infrastrukturun və kənd təsərrüfatının inkişafı üçün əlverişli şəraitin olması, dövlətimiz tərəfindən təsərrüfatın müxtəlif sahələrinə göstərilən dövlət qayğısı davamlı sosial-iqtisadi inkişafa yol açıb, bütün sahələrdə işgüzar ab-hava yaradıb. Rayon sakinləri belə qayğıdan ruhlanaraq böyük həvəslə fəaliyyət göstərir, qurub-yaradırlar. Bəli, bu gün bütün sahələr üzrə sürətli inkişaf davam edir. Burada təcrübəli fermerlərə, səriştəli mütəxəssislərə həmişə xüsusi hörmət və qayğı olub. Düşünürük ki, bu yerdə cari ilin ilk yeddi ayında rayonun uğurlarını əks etdirən bəzi səciyyəvi rəqəmləri xatırlatmağa ehtiyac var. Belə ki, bəhs edilən dövrdə Babək rayonunda ötən ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə əmtəə dövriyyəsinin həcmi 2 faiz artaraq 62563,3 min manata çatıb. Pərakəndə əmtəə dövriyyəsinin 4,5 faizini və yaxud 2836,1 min manatını iaşə əmtəə dövriyyəsi təşkil edib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faiz çoxdur. Həmin dövrdə əhaliyə göstərilən pullu xidmətlərin həcmi 2,8 faiz artaraq 15835,6 min manat olub. Pullu xidmətlərin 17,6 faizi və yaxud 2781,3 min manatı məişət xidmətlərinin payına düşüb. Əhalinin məşğulluğuna da xüsusi diqqət yetirilib. Rayonda bu ilin yeddi ayında 259 yeni iş yeri açılıb.

Bu gün ən qiymətli sərvət olan torpaq zəhmətkeş babəklilərin daimi iş yerinə çevrilib. Onlar yaxşı bilirlər ki, torpağa vaxtlı-vaxtında qulluq etməsən, suyunu, gübrəsini verməsən, yüksək məhsul toplaya bilməzsən. Həmişə olduğu kimi, cari ildə də rayonun torpaq mülkiyyətçiləri güzəştli qiymətlərlə müxtəlif gübrələrlə təmin ediliblər. Bu da məhsuldarlığa yaxşı təsir göstərib. Torpağın məhsuldarlığının artırılmasında melioratorların da üzərinə mühüm vəzifələr düşüb. Onlar bu ilin yeddi ayında hidrotexniki qurğular, hidrometrik postlar, nov kanallar, beton kanallar, nasos stansiyalarında da cari təmir işləri aparıb, suvarma kanallarında lildən təmizlənmə və təmir işləri görüblər. Həyata keçirilən tədbirlər öz bəhrəsini verib. 1 avqust 2016-cı il tarixə olan məlumata görə, rayonun təsərrüfatlarında 9374 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 29268 ton məhsul yığılıb. Məhsuldarlıq orta hesabla 31,2 sentner-hektar olub. 7785 hektar buğda əkini sahəsindən 24524 ton buğda əldə edilib. 1382 hektar arpa əkini sahəsindən isə 4063 ton arpa toplanılıb. Rayonda kartofçuluq da inkişaf etdirilən sahələrdəndir. Bəhs edilən dövrdə 450 hektar kartof əkilmiş sahənin 58,2 faizindən 4475 ton kartof yığılıb.

Bu ilin yanvar-iyun aylarında heyvandarlıq və quşçuluq sahələrinin də inkişafı təmin edilib. Hazırda Babək rayonunun təsərrüfatlarında 16 min 215 baş qaramal bəslənilir. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz və yaxud 237 baş çoxdur. Hazırda təsərrüfatlarda 153126 xırdabuynuzlu heyvan bəslənilir. Bu ilin yeddi ayında Babək rayonunda diri çəkidə 1650 ton ət, 9394 ton süd, 13596 min ədəd yumurta, 165,4 ton yun istehsal edilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,6, süd 1,3, yumurta 1, yun istehsalı 1,5 faiz artıb.

Rayonun kənd və balıqçılıq təsərrüfatlarında 40953,3 min manatlıq məhsul istehsal edilib. Bu da 2015-ci ilin yanvar-iyul ayları ilə müqayisədə 5,3 faiz çoxdur.

Rayonda meyvəçilik və tərəvəzçilik də diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilən “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində rayonda məqsədyönlü işlərin görülməsi davam etdirilir. Ötən illərdə bölgədə muxtar respublikanın torpaq, iqlim və relyef xüsusiyyətlərinə asan uyğunlaşan meyvə sortlarından ibarət tingçilik sahələri yaradılıb, minlərlə ting əkilib. Bəhs olunan dövrdə barverən meyvə bağlarından 1694 ton məhsul yığılıb ki, bu da 1 avqust 2015-ci illə müqayisədə 1,1 faiz çoxdur. Tərəvəzçilikdə də uğurlu nəticələr əldə edilib. Bu ilin yeddi ayında



2042 hektar tərəvəz bitkiləri əkini sahəsinin 63,4 faizindən 8023 ton tərəvəz məhsulları yığılıb. Məhsuldarlıq orta hesabla hər hektardan 62 sentner olub. 1510 hektar bostan bitkiləri əkini sahəsinin 41,1 faizindən 3906 ton bostan məhsulları yığılıb.

Qeyd edək ki, adıçəkilən dövlət proqramı muxtar respublikanın bütün bölgələri kimi, Babək rayonunda da əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatının ödənilməsini yerli istehsal hesabına təmin edəcək, tələbatdan artıq mövsümi məhsulların ixracına imkan yaradacaq. Bundan başqa, proqramın uğurlu icrası nəticəsində rayonda meyvə-tərəvəz istehsalı stimullaşdırılacaq, bu sahəyə investisiya qoyuluşu artacaq. Kartof, soğan, sarımsaq, yerkökü, pomidor, eyni zamanda meyvə və üzüm istehsalının həcmi yüksəldiləcək.

*Bəli, bu gün Babək rayonu muxtar respublikanın digər bölgələri kimi inkişafın yeni mərhələsinə qədəm qoyub. Əldə edilən uğurlar birgə, gərgin və səmərəli əməyin nəticəsində mümkün olub.*

**Səbuhi HÜSEYNOV**

---

*İstehsal müəssisələri*

# “Damla”nın alıcıları günbəgün artır

*Naxçıvan şəhərində fəaliyyət göstərən “Damla” şirniyyat mağazasında satılan məhsulların keyfiyyəti haqqında xoş sözlər çox eşitmişdim. Elə özüm də bu məhsullardan dəfələrlə almışam və indi də alıram. Bəs dadlı-tamlı tortlar, şorqoğal, paxlava, şəkərbura və içli kökələr necə hazırlanır? Bu suala cavab tapmaq üçün istehsal müəssisəsində olduq.*




Bizi sexin rəhbəri Sarvan Əliyev qarşıladı. Gənc sahibkar bildirdi ki, muxtar respublikamızda sahibkarlar yaradılan şərait onu şirniyyat istehsalına yönəldirib:

– Bu sahədə heç bir təcrübəm yox idi. Amma qarşısına məqsəd qoyan insan hər bir peşəyə, sənətə yiyələnə, o sahədə öz yerini təsdiqləyə bilər. Bir şərtlə ki, gördüyün işə məhəbbət ola. Bu da bir gerçəklikdir ki, insan əməyinə lazımi qiymət verilən yerdə, fəaliyyətinə geniş şərait yaradılan məkanda uğurlar qazanmaq çətin olmur. Bu amillər muxtar respublikamızda bütün sahibkarların yoluna yaşıl işıq yandırıb.

Sarvan doğulduğu Culfa rayonunun dağ kəndi Galda nənəsinin, anasının təndirdə bişirdikləri, necə deyərlər, ətri “beş ağaclıqdan” adamı vuran kökələrin reseptini alaraq şəhərə, müasir avadanlıqlarla təmin olunmuş sexə gətirib. İlk olaraq bu reseptlər əsasında məhsul istehsal ediblər. Ancaq görüblər ki, bununla kifayətlənmək, rəqabətədavamlı məhsul istehsal etmək olmaz. O mənada ki, bu gün bazar iqtisadiyyatı dövrü sahibkarlardan sağlam rəqabət tələb edir. Sahibkar da muxtar respublika bazarlarında, çeşid-çeşid şirniyyat bolluğunda özünü doğrultmaq, istehlakçı tələbatını ödəmək üçün kitablara üz tutub, milli şirniyyatlarımızın sirlərini öyrənib, müxtəlif çeşidlərə bələd olub. Deyir ki, bu sahə yaradıcılıq tələb edir. Gərək düşünüb daha dadlı, alıcıların tələbini, zövqünü oxşayan şirniyyat növləri istehsal edəsən.

Öyrəndik ki, hazırda sexdə 20 çeşiddə məhsul istehsal olunur. Həmin məhsullar artıq bazarda özünə kifayət qədər alıcı toplayıb. Şorqoğal, paxlava, badambura, qat-qat, qurabiyə kimi Şərq şirniyyatları, türk paxlavası, rəvani, kişmişli, şokoladlı, kokoslu şirniyyatlar piştaxtada çox qalmır. Müəssisənin rəhbəri bu barədə deyir ki, istehsal olunan şirniyyatların istifadə tarixi 15 gün olsa da, çoxunun satışı 2-4 günə başa çatır.

“Damla” şirniyyat mağazasında rastlaşdığım müştərilərlə söhbətimdə buna bir daha əmin oldum. Alıcı Nigar Məmmədli bildirdi ki, Bakı şəhər sakinidir. Orada şirniyyat müəssisələrinin birində çalışır. Deyir ki, həmişə Naxçıvana qonaq gələndə qohumlara şirniyyat alıb gətirirdim. Amma indi bildirirlər ki, burda hazırlanan məhsullar heç də orada istehsal edilən şirniyyatlardan geri qalmır. Düşünürəm ki, muxtar respublikada sahibkarlığa yaradılan bu şərait, göstərilən qayğı alıcılara və xüsusən xanımlara böyük töhfədir.

Mağazadan çıxanda düşünürdüm ki, bu gün muxtar respublikada hər bir sahənin inkişafına yüksək qayğı var. Qalır ki, bu qayğıdan səmərəli istifadə edəsən.

Sarvan Əliyevin sahibi olduğu istehsal müəssisəsinin kollektivi də bu həqiqəti dərindən dərk edir ki, hazırladığı məhsullar alıcı zövqünü oxşayır.

**Hafizə ƏLİYEVA**

# Naxçıvanın yaşıllığı onun gözəlliyini daha da artırır



*Elm və texnologiyanın yüksək inkişaf etdiyi XXI əsrin yenilikləri bəşəriyyət üçün nə qədər vacibdirsə, müasir dünyanın qarşı-qarşıya qaldığı ekoloji problemlərin sürətli həlli də o qədər lazımlıdır. Son dövrlərdə dünyanın müxtəlif ölkələrində təbii və texnogen dəyişikliklər səbəbindən ekoloji tarazlıq daha da pozulmuş və təbii ki, bəşəriyyət də bu acı nəticələrin dadını hiss etməkdədir. Buna görə də bu gün inkişaf etmiş ölkələrin əksəriyyətində diqqət mərkəzində saxlanılan əsas məsələlərdən biri ekoloji tarazlığın sabit saxlanılması və davamlılığına nail olunması, meyvə, giləmeyvə, bəzək bağçılığının yaradılması və meşə sahələrinin genişləndirilməsidir.*

Təbiət qayğı tələb edir, insanlardan isti münasibət istəyir. O, bu qayğını elə insanların özünə görə istəyir, onlara qaytarmaq üçün istəyir. Ağacı, yaşıllığı, meşəsi çox olan yaşayış məntəqələrindəki insanlar həmişə sağlam olur, çox yaşayır. Yaşıllığı zəngin olan yerlərdə uzunömürlü insanlar çox olur. Meşə, yaşıllıqlar olmayan yerdə çoxlu xəstəliklər hökmranlıq edir. İnsanları həm soyuqdan, həm istidən, həm də küləkdən qoruyur yaşıllıqlar. Təbiət insanın köməyi sayəsində daha da gözəlləşir, zənginləşir. İnsanlar təbiətin misilsiz nemətlərindən daim istifadə edir. Dahi insanlar həmişə təbiətə, yaşıllıqlara, meşələrə, bulaqlara, çaylara, dənizlərə təbabət sahəsi kimi baxıblar. Təbiətin misilsiz nemətlərindən daim istifadə edən insanlar təbiətə təbiət kimi öz səxavət əlini həmişə uzatmalıdır. Ana təbiətin keşiyində durmaq, təbii sərvətlərimizi qorumaq hər bir Vətən övladının müqəddəs borcudur. Təbiətin varlığı, onun saflığı, zənginliyi insanların sağlamlığı, firavanlığı, dincliyidir, ekoloji tarazlığın qorunmasıdır.

Son dövrlərdə dünya alimlərini düşündürən əsas məsələlərdən biri də yaşıl ərazilərin şəhərlər üzrə paylanılmasıdır. Çünki şəhərlər kütləvi yaşayış yerləri, buna görə də nəqliyyat vasitələrinin sıxlığı, fabrik və zavodların, sənaye komplekslərinin daha çox cəmləşdiyi ərazilər olduğundan bu məsələ daha da aktuallaşır. Bu gün dünyanın böyük meqapolislərindən tutmuş əhalisi 100 minin üzərində olan çoxsaylı şəhərlərin əksəriyyətində bu problemlə qarşılaşmaq mümkündür. Bu sırada yalnız o şəhərlərin bəxti gətirib ki, coğrafi və iqlim baxımından nisbətən əlverişli ərazidə yerləşir. Buna görə də istənilən şəhərdə yaşıllıq ərazilərinin çox olması həmin şəhərdə ekoloji tarazlığın normada saxlanılmasına şərait yaradır.

Hamımıza məlumdur ki, ötən əsrin 90-cı illərinin əvvəllərindən Naxçıvanın blokadaya salınması bir sıra çətinliklərlə bərabər, muxtar respublikanın yaşıl örtüyünə də az ziyan vurmamışdı. Qışın sərt soyuqlarından qorunmaq üçün əhalinin üz tutduğu meşə və yaşıllıq massivləri təkcə rayon ərazilərini deyil, paytaxt Naxçıvan şəhərini də əhatə etmişdi. Həmin dövrdə digər bölgələrimizlə yanaşı, Naxçıvan şəhərindəki yaşıllıq ərazilərinin də müəyyən bir qismi məhv edilmiş, nəticədə, bəzən yaşı yüzdən çox olan ağaclar kəsilərək evlərin qızdırılmasına sərf olunmuşdu. Belə faktlara o dövrün mətbuat orqanlarının səhifələrində də rast gəlmək mümkündür. Ancaq Naxçıvanın blokada vəziyyətində bütün çətinliklərə mərdliklə sinə gərdiyi həmin dövrü indi hamılıqla xatirələrdə yaşadırıq. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ekoloji siyasətin muxtar respublikada uğurla davam etdirilməsi digər bölgələr ilə yanaşı, paytaxt Naxçıvan şəhərinin də yaşıllaşmasında, buna görə də ekoloji baxımdan daha təmiz şəhərə çevrilməsində əhəmiyyətli rol oynamışdır. Reallıq isə budur ki, Naxçıvan şəhəri indi təkcə sabitliyi, abadlığı, səliqə-sahmanı ilə deyil, həm də gözoxşayan yaşıllıqları ilə seçilir.

Əvvəlcə qeyd edək ki, Naxçıvan şəhəri yerləşdiyi coğrafi mövqeyə görə heç zaman kəskin ekoloji problemlərlə üz-üzə qalmayıb. Bu, ondan irəli gəlir ki, şəhərin cəmi bir neçə kilometrlərlə radiusunda dağlıq ərazilərin mövcudluğu buranın havasının təmiz olmasına, o cümlədən münbit iqlim qurşaqlarının kəsişməsinə mühüm təsir göstərir. Ərazinin sərt kontinental iqlimə malik olması yaşıllıq ərazilərinin yaradılmasına müəyyən çətinliklər törətsə də, insan əzmkarlığının nəticəsi artıq özünü çoxdan təsdiq edib. Nəzərə alaq ki, Sovetlər Birliyi dövründə şəhərin yaşıllaşdırılmasına o qədər də ciddi fikir verilməyib. Xüsusilə tikintisi aparılan obyektlərin sahəsi müəyyənləşdirilərkən ərazilər yaşıllıqlardan "təmizlənib", əvəzində isə yeni tinglər əkilməyib və ya az əkilib. Ümumiyyətlə, həmin dövrdə yeni tikinti obyektləri istifadəyə verilərkən, bəzi istisnalar olmaqla, ətrafında yeni yaşıllıq sahələrinin yaradılması ənənəsi olmayıb. Ancaq indi əksinə, yeni istifadəyə verilən istənilən obyektin ətrafında həmin obyektin ərazisindən daha böyük sahənin yaşıllıq, o cümlədən gülkarlıq üçün ayrıldığının şahidi oluruq. Müasir dövrdə istənilən obyektin tikintisini bir-iki, uzağı dörd-beş ilə tamamlamaq mümkündür, lakin heç bir texnoloji yenilik yaşıllıqların əsas mənbəyi hesab edilən ağacların sürətlə böyüməsini təmin etmək gücündə deyil. Bu baxımdan yaşıllıqların salınması, yeni ağacların əkilməsi və böyüdülməsi müasir dövrdə strateji istiqamət kimi qəbul edilir. Yaşıllıqlardan söz düşmüşkən qeyd edək ki, Naxçıvan şəhərində hələ keçmiş zamanlardan kütləvi yaşıllıq sahələrinin qorunduğu ərazilər mövcuddur. Məsələn, şəhərimizdəki ən böyük yaşıllıq massivlərindən biri el arasında "Böyük bağ" adlanan ərazidir. Tarixi mənbələrə görə, bu bağ çar Rusiyası dövründə şəhərdə fəaliyyət göstərən qubernator tərəfindən salınıb. Hazırda burada hər iki əsrə şahidlik edən yüzlərlə meşə ağacları var. Şəhərin cənub-qərb istiqamətində yerləşən Əcəmi seyrəngahında da belə yaşlı ağaclara rast gəlmək mümkündür. Son illərdə hər iki ərazidə abadlaşdırma tədbirləri ilə yanaşı, yeni ağacların əkilməsinə də diqqət göstərilib. Bundan əlavə, şəhərin cənub hissəsində, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini əhatə edən qala divarlarının aşağı səmtində yerləşən yaşıllıq sahəsi də buradakı yaşlı ağacları ilə diqqəti cəlb edir. Hər üç sahə Naxçıvan şəhərinin ən böyük yaşıllıq zolaqlarından sayılır. Ümumiyyətlə, ötən dövrdə şəhərin hər yerində – park və küçələrində, idarə, təşkilat və müəssisələrin ərazilərində yeni ağaclar əkilib, xüsusilə şəhər ətrafında yeni bağlar salınıb, meşə massivləri yaradılıb. Bu yaşıllaşdırma tədbirlərində on minlərlə ağac və gül kolları əkilib. Təkcə 2016-cı ilin ötən dövründə həyata keçirilən yaşıllaşdırma tədbirləri zamanı Naxçıvan şəhərinin ərazisində 300 ədəd meşə, 14 min 370 ədəd müxtəlif meyvə, 700 ədəd həmişəyaşıl ağac, 18 min 400 ədəd müxtəlif gül kolları, 65 ədəd dekorativ bitkilər əkilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 8 fevral 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq Naxçıvan şəhəri ərazisində 6,5 hektar ərazidə meyvə bağı salınıb, 2 hektar meyvə bağında bərpa işləri aparılıb.

Təbii ki, ağacların əkilməsi işin bir tərəfidirsə, bu ağacların vaxtında suvarılması, onlara aqrotexniki qulluq göstərilməsi digər tərəfidir. Nəzərə alaq ki, muxtar respublikanın sərt kontinental iqlim şəraitində ağac əkmək, ona qulluq göstərmək çətin, məsuliyyətli və zəhmət tələb edən işdir. Buna görə də həmin yaşıllıqlara daim nəzarət edilir, su mənbəyi olmayan yaşıllıqların su ehtiyacı su maşınları ilə təmin olunur. Xüsusilə səhər və axşam saatlarında şəhərin park və küçələrində hər birimiz bu cür suvarılmanın şahidi oluruq. Məsələnin digər tərəfi ondan ibarətdir ki, yaşıllıqların salınması və qorunması təkcə bu sahəyə aidiyyəti olan orqanların fəaliyyəti ilə məhdudlaşmır. Hər həftənin şənbə günü təşkil olunan iməciliklərdə Naxçıvan şəhərində fəaliyyət göstərən bütün dövlət qurumlarının kollektivləri şəhər ərazisində onlar üçün ayrılmış yaşıllıq sahələrində ağaclara qulluq edir, onların böyüyüb boya-başa çatmasına əmək sərf edirlər. Qlobal istiləşmənin artdığı, iqlim dəyişikliklərinin daha çox müşahidə edildiyi müasir dövrdə belə tədbirlərin həyata keçirilməsi çox mühüm əhəmiyyət daşıyır.

*Bəli, bu gün qədim Naxçıvan şəhəri təkcə qədimliyi, zəngin mədəniyyəti ilə deyil, həm də yaşıllıqları ilə fəxr edə bilər. Əgər yeni yaradılmış ünvanlar şəhərimizin simasına gözəllik bəxş edirsə, yaşıllıqlar da bu gözəllikdən zövq almağa şərait yaradır. Məhz bu tamlıq Naxçıvanı hər kəs üçün daha sevilən və cazibədar edir.*

**Səbuhi HƏSƏNOV**

***Azərbaycan mədəniyyətinin inkişafına və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılmasına böyük diqqət və qayğı ilə yanaşan ulu öndərimiz Heydər Əliyev Azərbaycanda digər sahələrlə yanaşı, kitabxana işinin inkişafına da öz layiqli töhfələrini verib. Ümummilli liderimiz deyirdi ki, kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaların fəaliyyətinə qayğı xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.***

# Kitab bilik mənbəyidir




Tariximizin, milli-mənəvi sərvətlərimizin, adət-ənənələrimizin qorunub saxlanılmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual potensialının artırılmasında kitabxanalar əvəzsiz rol oynayır. Qədim tarixçilik ənənələrinə malik olan Azərbaycan öz yüksək kitab mədəniyyəti ilə seçilib və zəngin kitabxanaları ilə tanınıb.

İnformasiya əsri adlandırılan XXI əsr kitabxanaların qarşısında bir sıra yeni vəzifələr qoyur. Belə ki, kitabxana fondlarının müasir ədəbiyyatlarla zənginləşdirilməsi, kitabxanaların informasiyalaşdırılması, milli-mədəni irsimizin və adət-ənənələrimizin qorunması, kitabxana şəbəkəsinin idarəetmə strukturunun təkmilləşdirilməsi, kadr islahatlarının həyata keçirilməsi, yeni kitabxana binalarının tikilməsi, mövcud kitabxanaların maddi-texniki bazasının müasir dövrün tələblərinə uyğunlaşdırılması, dünya kitabxanaları ilə beynəlxalq əlaqələrin inkişaf etdirilməsi və genişləndirilməsi ilə beynəlxalq tədbirlərin təşkili və sair məsələlərlə bağlı böyük işlər görülür. Bildiyimiz kimi, kitabxanalar elmi sərvətləri toplayıb, qoruyub, saxlayıb və onları gələcək nəsillərə ərməğan etməklə yanaşı, mədəniyyət, ədəbiyyat, iqtisadiyyat, təhsil və digər sahələr üzrə elmi kəşflərin öyrənilməsi və tətbiqi üçün də şərait yaradır.

Ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da kitabxana binalarının tikilməsi, kitabxana şəbəkəsinin sürətli inkişafı, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, ixtisaslı kitabxanaçı kadrların hazırlanması istiqamətində ardıcıl və məqsədyönlü işlər həyata keçirilir. Bü gün muxtar respublikamızda yeni məktəb binaları tikilir və ya mövcud binalar əsaslı şəkildə yenidən qurulur. Ümumtəhsil məktəblərinin hər birində bədii ədəbiyyat və dərsliklərlə zəngin olan kitabxanalar fəaliyyət göstərir. Belə mədəniyyət müəssisələri təhsil, təlim və tərbiyənin həyata keçirilməsinə, uşaqlarda yaradıcı fəallığın, əmək vərdişlərinin, dərketmə qabiliyyətinin, təhsilə və ictimai vəzifələrə sayıq münasibətin inkişafına kömək edir, uşaq və yeniyetmələrdə oxu mədəniyyətini formalaşdırır. Həmçinin şagirdlərin asudə vaxtlarının səmərəli keçirilməsində, bilik və bacarıqlarının artırılmasında, ümumi dünyagörüşünün formalaşmasında, onların düzgün tərbiyə olunmasında məktəb kitabxanaları da mühüm rol oynayır. Belə ki, məktəb kitabxanaları ulu öndər Heydər Əliyev irsinin, fəaliyyətinin, qurduğu dövlətçilik ənənələrinin, Azərbaycançılıq ideyasının təbliğində, milli-mənəvi dəyərlərin, ana dilimizin qorunmasında, şagirdlərdə vətənpərvərlik hisslərinin formalaşdırılmasında əvəzsiz rol oynayır.

Mədəniyyətimizin, tariximizin, adət-ənənələrimizin şagirdlərə aşılanmasında, onların savadlı, zəhmətsevər, ağıllı və sağlam mühitdə yetişməsində kitabxanaçıların da üzərinə mühüm vəzifələr düşür. Kitabxanaçı işini elə qurmalıdır ki, məktəbdə təhsil alan şagirdləri müasir dövrün tələbinə cavab verə biləcək bir səviyyəyə çatdıra, bilik və bacarıqlara yiyələndirə bilsin. Ölkənin qəhrəmanlıq və mübarizlik tarixini özündə əks etdirən şifahi xalq ədəbiyyatı nümunələrinin, "Dədə Qorqud" və "Koroğlu" dastanlarının, bir sıra nağıllarımızın şagirdlər arasında təbliğ edilməsi onlarda vətənpərvərlik, qəhrəmanlıq, mübarizlik hissini formalaşdırır, yadelli işğalçılara qarşı nifrət, doğma torpağa məhəbbət hissləri və duyğuları tərbiyə edir. Eyni zamanda kitabxanalarda N.Gəncəvi, M.Füzuli, M.F.Axundov, A.Səhhət, M.Ə.Sabir, S.Vurğun və başqa klassiklərimizin yubiley tədbirlərinin, onların əsərlərinin müzakirələrinin keçirilməsi uşaqların dünyagörüşünün zənginləşməsi, Azərbaycan ədəbiyyatı ilə yaxından tanış olmaları üçün geniş imkanlar yaradır.

Şagirdlərin kitab mütaliəsinə olan marağını artırmaq, asudə vaxtlarını səmərəli keçirmək məqsədilə cari ilin aprel ayında Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Yazıçılar Birliyi və "Şərq qapısı" qəzetinin birgə təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin şagirdləri arasında "Kitab bilik mənbəyidir" adlı müsabiqə keçirilib. Müsabiqədə daha çox bədii ədəbiyyat oxumuş, geniş dünyagörüşə malik olan şagirdlər iştirak ediblər. Müsabiqədə qalib gələnlərə diplom və qiymətli hədiyyələr verilib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşları mütəmadi olaraq məktəb kitabxanalarında monitorinqlər həyata keçirir, kitabxanaların fəaliyyəti ilə yaxından tanış olur, təhlillər aparır, uşaqlara göstərilən kitabxana xidmətinin yaxşılaşdırılması barədə təkliflərini verirlər.

**Kamal FƏRƏCOV**
*Naxçıvan Muxtar Respublikası*
*Təhsil Nazirliyinin aparıcı məsləhətçisi*

## Kəngərli rayonunda *“Xalq yaradıcılığı günü”* keçirilib

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzi və Kəngərli Rayon Mədəniyyət və Turizm Şöbəsinin birgə təşkilatçılığı ilə rayonda “Xalq yaradıcılığı günü” keçirilib.***

Tədbiri giriş sözü ilə Kəngərli Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Məhərrəm Əliyev açaraq bildirib ki, xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi yaşadan, birliyimizi təmin edən milli dəyərləri qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 7 fevral 2009-cu il tarixli Sərəncamına əsasən, muxtar respublikada milli dəyərlərin qorunub saxlanılması, təbliği və gələcək nəsillərə çatdırılması istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter alıb. Belə tədbirlər unudulmaqda olan milli-mənəvi dəyərlərin xalqımıza qaytarılmasında mühüm rol oynayır.

Vurğulanıb ki, qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması bu gün də öz aktuallığını saxlayır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

Qeyd olunub ki, milli dəyərlərin qorunması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz Heydər Əliyev deyirdi: ***“Milli dəyərlər daim qorunmalı və yaşadılmalıdır. Çünki milli dəyərlər bizim varlığımızın əsasıdır”.***

Çıxışda xalq yaradıcılığının rayonda yaşadılan sahələrindən də söhbət açılıb. Qeyd edilib ki, Kəngərli rayonunda folklorumuzun, xalçaçılıq və tikmə sənətlərinin, xalq rəqs və oyunlarının yaşadılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.

Sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin Xalq yaradıcılığı şöbəsinin müdiri Məmməd Məmmədov çıxış edərək bildirib ki, son iyirmi ildə qədim diyarımızda milli dəyərlərin qorunması və təbliği sahəsində böyük işlər görülüb. Ali Məclis Sədrinin adıçəkilən sərəncamından sonra muxtar respublikamızın bütün bölgələrində xalq yaradıcılığının müxtəlif sahələrinə yeni həyat verilib. Xalq sənətinin və yaradıcılığının ağacişləmə, xalçaçılıq, papaqçılıq, dülgərlik, dəmirçilik, toxuculuq, zərgərlik, misgərlik sahələri ilə yanaşı, qədim rəqslərimiz, xalq oyunlarımız və mərasim tamaşalarımız yaşadılır. Bu gün qədim diyarda yüzlərlə insan xalq yaradıcılığının müxtəlif sahələrini yaşadır.

Sonra tədbir iştirakçıları Fikrət Babayevin rayonun tarixi abidələrini və təbiətini əks etdirən rəsm əsərləri ilə tanış olublar. Ramiz Şükürovun taxtadan düzəltdiyi müxtəlif maketlər, Aynur Bağırovanın toxuculuq və tikmə işləri də tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Rayonun “Gülümey” folklor qrupunun ifa etdiyi xalq deyimləri, böyüklərdən ibarət “Sarı gəlin” yallı kollektivinin ifa etdiyi “Sarı gəlin”, “Tənzərə”, “Tello”, “Köçəri” rəqsləri iştirakçılara xoş ovqat bəxş edib.

Belə tədbirlərin muxtar respublikanın digər rayonlarında da davam etdirilməsi nəzərdə tutulub.

**Əli RZAYEV**

***Məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə 2004-2005-ci illər təvəllüdlü yeniyetmələr arasında futzal üzrə Naxçıvan Muxtar Respublika turniri keçirilib.***

## Futzal üzrə muxtar respublika turnirinin qalibi məlum olub



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkil etdiyi turnirdə 8 komanda mübarizə aparıb. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən yarışın açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov bildirib ki, bu cür turnirlərin təşkili muxtar respublikada uşaq futbolunu inkişaf etdirmək, yeniyetmələrin oyun təcrübəsini və onlarda bu idman növünə marağı artırmaq məqsədi daşıyır. Hazırda Naxçıvanda bunun üçün hərtərəfli imkanlar yaradılıb, mini stadionlar tikilib uşaqların ixtiyarına verilib. Gələcəkdə də keçiriləcək belə turnirlər uşaqların futbol, həmçinin futzal bacarığına müsbət təsir göstərəcək.

“Naxçıvan-1”, “Naxçıvan-2”, “Darıdağ”, “Şərur”, “Şahbuz”, “Babək”, “Culfa” və “Ordubad” komandalarının mübarizə apardığı turnir olimpiya sistemi üzrə keçirilib. Turnirin həlledici qarşılaşmasında “Darıdağ” və “Şahbuz” komandaları üz-üzə gəliblər. Daha üstün oyun sərgiləyən Şahbuz komandası turnirin qalibi olub. Üçüncülük oyununda isə meydana “Şərur” və “Naxçıvan-1” komandaları çıxıb. Görüş “Naxçıvan-1” komandasının 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Sonda hər üç yeri tutan komandalar diplomla mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Culfa rayonu üzrə 2016-2017-ci tədris ilində pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| S/№ | Məktəbin adı | Rayon mərkəzi ilə məktəblər arasındakı məsafə (km) | Ehtiyac olan ixtisaslar | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Azərbaycan dili və ədəbiyyat | | Xarici dil (ingilis) | | Xarici dil (alman) | | Riyaziyyat | | İnformatika | | Tarix | | Coğrafiya | | Fizika və astronomiya | | Kimya | | Biologiya | | Fiziki tərbiyə | | İTPM | | Texnologiya | | Cəmi: | |
| | | | vakant yer | saat | vakant yer | saat | vakant yer | saat | vakant yer | saat | vakant yer | saat | vakant yer | saat | vakant yer | saat | vakant yer | saat | vakant yer | saat | vakant yer | saat | vakant yer | saat | vakant yer | saat | vakant yer | saat | vakant yer | saat |
| 1. | Culfa şəhər 1 №-li tam orta məktəb | | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 |
| 2. | Culfa şəhər 2 №-li tam orta məktəb | | | | | | 1 | 12 | | | | | 2 | 24 | | | | | | | | | | | | | | | 3 | 36 |
| 3. | Culfa şəhər 3 №-li tam orta məktəb | | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 |
| 4. | Yaycı kənd 1 №-li tam orta məktəb | 15 | | | | | | | 1 | 12 | | | 1 | 12 | 1 | 12 | | | | | 1 | 12 | | | 1 | 12 | | | 5 | 60 |
| 5. | Yaycı kənd 2№-li tam orta məktəb | 15 | | | | | | | 1 | 12 | | | 1 | 12 | | | 1 | 12 | | | | | | | | | | | 3 | 36 |
| 6. | Dizə kənd tam orta məktəbi | 17 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | 1 | 12 | | | | | 2 | 24 |
| 7. | Gülüstan kənd tam orta məktəbi | 5 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 |
| 8. | Camaldın kənd tam orta məktəbi | 20 | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 | | | 1 | 12 | | | | | | | 3 | 36 |
| 9. | Ərəzin kənd tam orta məktəbi | 22 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | 3 | 36 | | | 4 | 48 |
| 10. | Qızılca kənd tam orta məktəbi | 26 | | | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | 1 | 12 |
| 11. | Saltaq kənd tam orta məktəbi | 31 | | | 1 | 12 | | | | | 1 | 12 | | | | | | | 1 | 12 | | | 1 | 12 | | | | | 4 | 48 |
| 12. | Əlincə kənd tam orta məktəbi | 36 | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 13. | Xanəgah kənd tam orta məktəbi | 36 | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | 1 | 12 | | | | | 2 | 24 |
| 14. | Xoşkeşin kənd tam orta məktəbi | 36 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | 1 | 12 | 2 | 24 |
| 15. | Qazançı kənd tam orta məktəbi | 40 | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | 2 | 24 |
| 16. | Milax kənd tam orta məktəbi | 45 | | | | | | | | | | | 1 | 12 | | | | | 1 | 12 | | | | | | | | | 2 | 24 |
| 17. | Teyvaz kənd tam orta məktəbi | 50 | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 18. | Ərəfsə kənd tam orta məktəbi | 51 | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 16 | | | 1 | 16 |
| 19. | Ləkətağ kənd tam orta məktəbi | 58 | | | 1 | 12 | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | 2 | 24 |
| 20. | Boyəhməd kənd tam orta məktəbi | 68 | | | | | | | | | | | 1 | 12 | | | | | | | 1 | 12 | | | 1 | 16 | | | 3 | 40 |
| 21. | Şurud kənd tam orta məktəbi | 35 | | | 1 | 12 | | | | | 1 | 12 | 1 | 12 | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | 5 | 60 |
| 22. | Gal kənd tam orta məktəbi | 27 | 1 | 12 | 1 | 15 | | | 1 | 12 | | | | | | | | | 1 | 12 | | | | | | | | | 4 | 51 |
| | Cəmi: | | **3** | **36** | **6** | **75** | **1** | **12** | **4** | **48** | **3** | **36** | **8** | **96** | **7** | **84** | **3** | **36** | **4** | **48** | **4** | **48** | **3** | **36** | **6** | **80** | **1** | **12** | **53** | **647** |

## Şahbuz rayonu üzrə 2016-2017-ci tədris ilində pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| S/№ | Məktəbin adı | Rayon mərkəzi ilə məktəblər arasındakı məsafə (km) | Azərbaycan dili və ədəbiyyat | | Riyaziyyat | | Tarix | | Xarici dil | | Coğrafiya | | Fizika | | Kimya | | Biologiya | | İbtidai sinif | | Fiziki tərbiyə | | İnformatika | | GÇH | | Cəmi: | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Vakant | Saat | Vakant | Saat | Vakant | Saat | Vakant | Saat | Vakant | Saat | Vakant | Saat | Vakant | Saat | Vakant | Saat | Vakant | Saat | Vakant | Saat | Vakant | Saat | Vakant | Saat | Vakant | Saat |
| 1. | Mahmudoba kənd tam orta məktəbi | 6 | | | | | | | | | 1 | 12 | 1 | 12 | | | 1 | 12 | | | | | 1 | 12 | | | 4 | 48 |
| 2. | Şəhər 2 nömrəli tam orta məktəb | 2 | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 | | | 1 | 12 |
| 3. | Nursu kənd tam orta məktəbi | 12 | | | | | | | 1 | 22 | | | 1 | 12 | | | 1 | 12 | 3 | 66 | | | | | | | 6 | 112 |
| 4. | Güney Qışlaq kənd tam orta məktəbi | 17 | | | | | 1 | 12 | | | 1 | 12 | | | | | 1 | 12 | | | | | | | | | 3 | 36 |
| 5. | Yuxarı Qışlaq kənd tam orta məktəbi | 17 | | | | | | | | | | | | | | | | | 1 | 18 | | | | | | | 1 | 18 |
| 6. | Gömür kənd tam orta məktəbi | 22 | | | | | | | 1 | 18 | | | | | | | 1 | 12 | 1 | 18 | 1 | 14 | | | | | 4 | 62 |
| 7. | Ağbulaq kənd tam orta məktəbi | 16 | 1 | 18 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | 2 | 30 |
| 8. | Badamlı kənd tam orta məktəbi | 14 | | | 1 | 12 | | | 1 | 12 | | | 1 | 12 | | | | | | | | | | | | | 3 | 36 |
| 9. | Türkeş kənd tam orta məktəbi | 13 | | | | | | | 1 | 22 | 1 | 12 | | | | | 1 | 12 | 1 | 18 | 1 | 14 | | | | | 5 | 78 |
| 10. | Şada kənd tam orta məktəbi | 22 | 1 | 18 | | | 1 | 12 | | | 1 | 12 | | | 1 | 12 | | | | | | | | | | | 4 | 54 |
| 11. | Aşağı Qışlaq kənd tam orta məktəbi | 13 | | | | | | | | | | | | | | | | | | | 1 | 14 | | | 1 | | 2 | 14 |
| 12. | Daylaqlı kənd tam orta məktəbi | 4 | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | 1 | 12 |
| 13. | Badamlı qəsəbə tam orta məktəbi | 8 | | | | | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 | | | 3 | 36 |
| 14. | Şahbuzkənd tam orta məktəbi | 7 | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | 1 | 12 | | | 2 | 24 |
| 15. | Kolanı kənd tam orta məktəbi | 10 | | | 1 | 18 | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | 2 | 30 |
| 16. | Kükü kənd tam orta məktəbi | 16 | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | 1 | 12 |
| 17. | Külüs kənd tam orta məktəbi | 14 | | | | | | | 1 | 22 | | | | | | | | | | | | | | | | | 1 | 22 |
| 18. | Qızıl Qışlaq kənd tam orta məktəbi | 7 | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | 1 | 12 |
| 19. | Biçənək kənd tam orta məktəbi | 24 | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 | | | 1 | 12 |
| | **Cəmi:** | | **2** | **36** | **2** | **30** | **3** | **36** | **6** | **108** | **6** | **72** | **3** | **36** | **2** | **24** | **8** | **96** | **6** | **120** | **3** | **42** | **5** | **60** | **1** | | **47** | **660** |


ŞƏRQ qapısı

Məsul katib: Muxtar Məmmədov

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Hüseynov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1050. Sifariş № 639